**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№1* *Sosial-siyasi elmlər seriyası* *2010*

# QANUNVERİCİLİKDƏ BOŞLUQLARIN HÜQUQİ TƏBİƏTİ

**R.K.CƏBRAYILOV**

***Bakı Dövlət Universiteti***

***rafael-cebrayilov@mail.ru***

*Məqalədə qeyd olunur ki, qanunvericilikdə boşluqlar istənilən hüquq sisteminə xas olan təbii haldır. Bu qüsurlar obyektiv olaraq tənzimlənməsi tələb olunan bir sıra ictimai münasibətlərin nizamlanmaması nəticəsində, ictimai münasibətlərin sürətlə inkişafını ilə əlaqədar qanunvericiliyin "köhnəlməsi" nəticəsində və ya qanunvericilik texnikasının mükəmməl olmaması səbəbindən yarana bilər.*

*Boşluq o halda yoxdur ki, konkret məsələnin normativ hüquqi akta daxil edilməməsi və ya onun həllinin müvafiq dövlət orqanın öhdəsinə buraxılması haqqında açıq-aşkar niyyət olsun.*

Qanunvericilikdə boşluqlar istənilən hüquq sisteminə xas olan təbii haldır. Belə ki, ən mükəmməl pozitiv hüquq sistemi belə, həyatda baş verən bütün müxtəlif halları tamamilə əhatə edə bilməz. İnsanın yaratdığı hər məhsul kimi, qanunda da çox vaxt fikir qüsurları və ya fikrin şərhi qüsurları olur. Belə qüsurlar ya obyektiv tənzimlənmə tələb edən bir sıra ictimai münasibətlərin nizamlanmaması, ya ictimai münasibətlərin sürətli inkişafı ilə əlaqədar qanunvericiliyin "köhnəlməsi" və yaxud da qanunvericilik texnikasının mükəmməl olmaması səbəbindən yaranan boşluqlardır.

Həqiqətən, qanunvericilikdə boşluqlar qaçılmazdır və hətta ən mükəmməl qanunvericilik sisteminə xasdır. Bu boşluqlar qanunvericiliyin "köhnəlməsi", habelə yeni yaranan və hüquqi tənzimlənmə sahəsinə daxil olan bütün ictimai münasibətləri əhatə etməyin mümkünsüzlüyü ilə şərtlənir. Müəyyən bir zaman ərzində ictimai həyat məsələlərinin tam və hərtərəfli tənzimlənməsi üçün zəruri olan bilik və təcrübə yığılır. Qanunvericilikdə boşluqlar qanunvericilik texnikasının çatışmazlığı, qanunvericiliyin təkmilləşdirilməsinə, ictimai münasibətlərin inkişafı təkamülünə vaxtında lazımi diqqət yetirilməməsi və s. subyektiv səbəblərdən də mümkündür.

"Qanunda boşluqlar" əsasən məcazi mənada qanunun natamamlıqlarından biri, onun zəruri komponentini təşkil edəcək hissələrin olmaması kimi nəzərdən keçirilir. Qanunvericinin məsələnin həllini zamanın axarına buraxmaq və ya onun həllini təcrübi orqanların öhdəsinə buraxmaq məqsədilə şüurlu şəkildə bu məsələni açıq qoyduğu halda qanunda boşluqlardan danışmaq yanlış olardı. Bəzən qanunda ondan kənar olan hansısa amillərə (adətlər, təcrübə və s.) istinadlar olunması, qanunu tətbiq edənə isə qanunda istifadə olunmuş mücərrəd anlayışları konkretləşdirmək hüququ verilməsi halları da buraya aiddir.

Buna görə qanunvericinin bu və ya digər məsələləri təmin etmədən və ya onların həllini hüquqtətbiqedici orqanlara həvalə etmədən açıq saxlamasının əsas-

larının nəzəri cəhətdən işlənib hazırlanmasının əhəmiyyətini inkar etmək düzgün olmazdı. Eyni zamanda bunsuz qanunda boşluqların müəyyən edilməsi mümkün deyil. Bununla belə, bu mənada "qəsdən buraxılmış" boşluqların ayrılması məqsədəuyğun deyil. Əks halda bir "boşluq" anlayışında iki tamamilə müxtəlif hal birləşir ki, bu da tədqiqat problemlərini tamamilə dolaşıq salır. Belə halların qanun boşluqlarına aid edilməsi heç də onların doldurulması prosesini qanunun konkretləşdirilməsindən, qanunun şərhindən və s. fəaliyyətdən fərqləndirilməyə şərait yaratmır.

"Qanunda boşluqlar" o halda mövcuddur ki, normativ hüquqi akt ictimai münasibətləri ümumi şəkildə tənzimləyərək, bu və ya buna bənzər münasibətlərin hansısa aspektlərini hüquqi vasitə ilə ifadə etməli olduğu halda bunu etmir. Normativ aktın ümumiyyətlə olmadığı halda, yəni, ictimai münasibətlər ümumi şəkildə belə hüquqi təsbitini tapmayıbsa, "hüquqda boşluq" olduğu danılmazdır.

"Hüquqda boşluqlar" və "qanunda boşluqlar"ın səciyyələndirilməsi zamanı normativ hüquqi aktın və ya onun ayrı-ayrı normalarının olmamasında özünü göstərən natamamlıqdan danışmaq olar. Əksinə, normativ hüquqi aktın olmaması bir normanın çatışmamasında da ğzünü göstərə bilər. Bir qayda olaraq, bir normativ hüquqi aktda hansısa normanın olmaması həm onun natamamlığı, həm də bütünlükdə qanunun natamamlığı deməkdir.

Qanunda boşluqlar və ya normativ hüquqi aktın natamamlığı özünü o halda xüsusilə açıq-aşkar büruzə verir ki, mövcud normalarda müəyyən hərəkətlərin həyata keçirilməsi zərurəti nəzərdə tutulur, amma onların həyata keçirilməsi qaydası və ya forması müəyyən edilmir, orqanın müəyyən tədbiri həyata keçirməsi müddəti və buna görə məsuliyyətin kimin üzərinə düşdüyü müəyyən olunmur, məsuliyyətin həddi qeyd edilmir və s.

Boşluqlardan hansıların "əsl" hesab olunması haqqında mübahisənin yarım əsrdən çox davam etməsini əsassız hesab edirik. "Əsl" sözündən istifadə edənlər, istəsələr də, istəməsələr də, dolayısı ilə başqa növ boşluqların da mövcud olduğunu etiraf edirlər. Əlbəttə, bəzən bu və ya digər təzahürün əhəmiyyətini müvafiq terminlə göstərməyin faydası var, amma belə halda da əsas vəzifə bu və ya digər boşluqların aradan qaldırılmasından ibarətdir. "Əsl" və "süni" terminləri yanlız boşluqların müəyyən edilməsi və doldurulması təcrübəsini yanlış istiqamətə yönəldə bilər.

Qanunverici həmişə cəmiyyətdə ictimai münasibətlərin tarixi inkişafının gedişini düzgün şəkildə əks etdirməyə, hüququ cəmiyyətin proqressiv inkişafının tələblərinə hər hansı uyğunsuzluğundan uzaq olmağa çalışır. Lakin ya obyektiv səbəblər üzündən (iqtisadi və sosial-siyasi inkişafın sürəti, mümkün münasibətlərin bütün müxtəlifliklərini öncədən görməyin mümkünsüzlüyü və s.) və ya subyektiv xarakterli hallarla əlaqədar (operativliyin kifayət qədər olmaması, diqqətsizlik, qanunvericilik texnikası qaydalarına riayət olunmaması və s.) hansısa vaxt kəsiyində ayrı-ayrı faktlar və münasibətlər mövcud hüquqda əhatə olunmur, digərləri isə hüquqi əhəmiyyətini itirir, buna baxmayaraq, formal olaraq ləğv edilməmiş akt kimi qalmaqda davam edir.

Hüquq tətbiq edən orqanlar heç bir halda qanunverici iradədən kənar və ya ona zidd hərəkət edə bilməz. Əgər qanunverici müsbət rəy bildirməli olduğu halda susursa, hüquq tətbiq edən orqanlar qanunvericinin müəyyən edilmiş niyyətinə məhəl qoymamaq, hüquqda boşluqlar olduğu zaman görülən tədbirləri həyata keçirmək hüququna malik deyillər.

Sübut olunur ki, hüquqda ayrı-ayrı halların fərqləndirilməsi son nəticədə

hüququn tətbiq olunduğu subyektlərin sonrakı əməlləri ilə əlaqədardır. Bu cəhətdən boşluqları hüququn susmadığı hallardan da fərqləndirmək vacibdir. Əlbəttə, qanunvericilikdə bu halları tənzimləyən norma varsa, boşluq haqqında ehtimal əsassız olar.

Qanunverici birbaşa və ya dolayısı ilə hüquq tətbiq edən orqana mövcud qaydaların konkretləşdirilməsi səlahiyyətini və ya işi öz mülahizəsinə uyğun həll etməyə icazə verirsə, burada da boşluq yoxdur.

Beləliklə, boşluqların mövcudluğu haqqında nəticələrə hansı əsaslarla gəlindiyindən asılı olaraq, onların ən azı iki növünü fərqləndirmək olar: qanunvericiliyin özündə müəyyən olunan boşluqlar və qanundankənar amillərin (iqtisadi tələbat, hüquqi təfəkkür, hüquqi təcrübə və s.) təhlili əsasında müəyyən edilən boşluqlar.

Ən mükəmməl qanunvericilik belə ictimai münasibətlərin hüquqi tənzimlənmə tələb edən bütün növlərini nəzərə almaq iqtidarında deyil. Hüquq tətbiq edən orqanlar öz səlahiyyətlərinin icrası zamanı qanunda və ya digər normativ-hüquqi aktda birbaşa tənzimlənməsi olmayan vəziyyətlərlə qarşılaşırlar. Başqa sözlə, hüquq tətbiq edən orqan öz fəaliyyətində boşluqlarla qarşılaşır. V.M.Juykov haqlı olaraq qeyd edir ki, qanunverici zəruri qanunları qəbul etməyi nə qədər istəsə və bacarsa da, hüquqda boşluqlar olub, var və həmişə də olacaq. Çünki qanunvericilikdə tənzimlənməsinə ehtiyac olan bütün münasibətləri nəzərə almaq, sadəcə, mümkün deyil. Ayrı-ayrı dövrlərdə hətta stabil və yaxşı işlənib hazırlanmış qanunvericilik də əsaslı şəkildə yenilənməyə başlayır ki, bu da mütləq çox mühüm münasibətlərin tənzimlənməsində boşluqların artmasına gətirib çıxaracaq [1, 147].

Hüquq ədəbiyyatında hüquq tətbiqedici orqanın hüquqda boşluqların aradan qaldırılması ilə bağlı fəaliyyəti qiymətləndirilir. Bu zaman bəzi müəlliflər "hüquqda boşluqların doldurulmasından" danışır, digərləri isə "boşluqların aradan qaldırılması" anlayışından istifadə edirlər. N.N.Voplenkonun mövqeyi ilə razılaşmaq lazımdır ki, hüquqda boşluğun doldurulması da, aradan qaldırılması da mənaca çox yaxın anlayışlardır və boşluqların öhdəsindən gəlinməsinin bir-birindən asılı olmayan üsullarıdır [2, 40]. Hüquqda boşluğun tamamlanması hüquqyaradıcı orqanların səlahiyyətinə aiddir və hüququn çatışmayan normasının və ya bütünlükdə normativ aktın işlənib hazırlanması və qəbulu üzrə fəaliyyətdən ibarətdir. Boşluqların aradan qaldırılması zamanı hüquq tətbiq edən orqanın konkret işi həll etməsindən sonra da bu hüquqda boşluqlar qalır və normativ hüquqi aktın qəbul olunmasını tələb edir. Deməli, hüquq yaradıcılığı hüquqda boşluqların doldurulmasının və bunun nəticəsi olaraq, boşluğun ləğvinin əsas üsuludur.

P.E.Nedbaylo haqlı olaraq qeyd edir ki, "hüquqda boşluqları hüquqi təsir dairəsinə aid olmayan ictimai münasibətlərin hüquqla tənzimlənməməsi ilə eyniləşdirmək olmaz" [3, 455].

Hüquq ictimai münasibətlərin müəyyən, dəqiq məhdudlaşdırılmış sahəsini tənzimləyir və hüquq boşluqlarını bu sahədən kənarda deyil, onun daxilində axtarmaq lazımdır. Hüququn boşluğu sözün həqiqi mənasında o halda mövcuddur ki, müəyyən məsələnin hüquqi tənzimlənmə sahəsinə daxil olduğunu, hüquqi vasitələrlə həll edilməli olduğunu, amma onun bütünlükdə və ya hansısa hissəsinin həllinin hüquqda nəzərdə tutulmadığını və ya tamamilə nəzərdə tutulmadığını iddia etmək mümkün olsun.

Beləliklə, hüquqda boşluq haqqında o hallarda danışmaq olar ki, zəruriliyi ictimai münasibətlərin inkişafı və işlərin təcrübi həllinə olan tələbat, mövcud qanunvericiliyin əsas prinsipləri, mənası və mahiyyəti ilə şərtlənən normativ qanunlar

tamamilə və ya qismən çatışmasın.

Ciddi qanunçuluq rejimi şəraitində hüquqda boşluqlar, prinsipcə, arzuolunmazdır, qeyri-normal hallardır və hüquqi sistemin müəyyən nöqsanlarına, normativ tənzimlənmədə xətalara dəlalət edir. Qüvvədə olan qanunvericilikdə nə qədər az boşluq olsa, o, bir o qədər mükəmməldir və qanunçuluq da bir o qədər çox möhkəmlənəcəkdir. Əksinə, qanunvericilik sistemində çox sayda boşluqların mövcudluğu sistemin mükəmməl olmadığını, qəbul edilən normativ hüquqi aktların texniki-hüquqi keyfiyyətinin aşağı olduğunu göstərir. Şübhəsiz, daim nəzərə almaq lazımdır ki, yeni qanunun qəbulu məsələnin ətraflı öyrənilməsini, son nəticələrin elmi əsaslandırılmasını tələb edir.

Qanunvericiliyin təkmilləşdirilməsi probleminin hüquq elmi və təcrübəsi üçün daim aktual olduğuna görə, fikrimizcə, hüququn nöqsansız, mükəmməl olduğunu iddia etmək doğru olmazdı. Bu, mümkünsüzdür. Belə ki, normalar hər zaman ictimai həyatın inkişaf səviyyəsindən geri qalır. Bununla əlaqədar olaraq, qüvvədə olan qanunvericiliyin tətbiqi zamanı hüquq tətbiqedici orqanları öz fəaliyyətində qanunda, normativ aktlarda birbaşa tənzimlənməsi olmayan vəziyyətlərlə qarşılaşırlar. Bunun nəticəsi kimi hüquq tətbiqedici orqanlar və məhkəmələr "hüququ doldurma" fəaliyyəti ilə məşğul olmaq məcburiyyətində qalırlar.

Hüququn özünəməxsus dinamik sistem kimi xüsusiliyi ondan ibarətdir ki, o, öz-özlüyündə ictimai inkişaf istiqamətlərini operativ nəzərə almağa qadirdir və bu zaman möhkəm, sabit, operativ-hüquqi ictimai tənzimləmə sisteminin keyfiyyətini qoruyub saxlayır. Bunun üçün hüquq sistemində qanunvericilikdə boşluqların aradan qaldırılmasının mümkünlüyü əvvəlcədən nəzərdə tutulur. Bu zaman hüquq yaradıcılığı yolu ilə deyil, hüququn tətbiq edilməsi zamanı xüsusi institutlardan istifadə üsulu tətbiq edilir. Bu institutlar qanunvericinin yanlışlıqlarını düzəltməyə, hüquq normalarının inkişaf etməkdə olan ictimai münasibətlərin tələblərinə uyğun təsirini təmin etməyə imkan verir. Beləliklə, hüquq sisteminin öz-özünü tənzimləməsinə nail olunur.

Boşluqlar ən çox hüququn həyata keçirilməsi prosesində aşkar olunur. Hüquq tətbiqedici orqan qarşısında hətta bu halda belə işin vaxtında və düzgün həll edilməsi vəzifəsi durur. Boşluğun qanunvericiyə müraciət vasitəsilə doldurulması işin həll edilməsi prosesini uzada və ümumiyyətlə, müəyyən nəticəyə gətirib çıxarmaya bilər. Bu halda hüquq tətbiqedici orqan boşluğu müstəqil şəkildə aradan qaldırmaq hüququna malikdir. Boşluğun aradan qaldırılması işin qanunvericinin iradəsinə uyğun şəkildə, qanun analogiyası və ya hüquq analogiyası əsasında həllini təmin edir. Güman edirik ki, hüquq analogiyasının tətbiqi problemi daha çox hüquq tətbiq edən orqanın hüquq analogiyası və qanun analogiyası arasında fərqin nədən ibarət olması barədə dəqiq təsəvvürə malik olmaması ilə bağlıdır. İlk öncə, qanunun analogiyasından fərqli olaraq, hüquq analogiyasından istifadə zamanı oxşar münasibətləri tənzimləyən və adət olunmuş "əgər... deməli... əks təqdirdə" düsturuna malik hüquqi normalar yoxdur. Lakin norma-məqsədlər, norma-vəzifələr və ilk öncə hüquq analogiyasının tətbiqi üçün əsas olan prinsiplər mövcüddur.

Analogiyanın qanun analogiyası və hüquq analogiyasına ayrılması zamanı nəzərə almaq lazımdır ki, birinci halda hüquq tətbiq edən orqan yaranmış münasibəti tənzimləyən ümumi qayda olmadıqda, bu qaydanı qanunun özünə əlavə edilmiş xüsusi müddəalar əsasında qurmağa çalışır. İkinci halda o, Konstitusiyada və qanunlarda təsbit edilmiş hüququn ümumi və xüsusi prinsiplərinə əsaslanır. Lakin qanun analogiyasının və hüquq analogiyasının tətbiqi zamanı qanunvericilikdə müəyyən

olunmuş qayda və məhdudiyyətlərin nəzərə alınması vacibdir. Belə ki, birinci oxunuşda qəbul olunmuş "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 14.4-cü maddəsinə əsasən "Cinayət, inzibati hüquqpozmalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüquq analogiyasından və ya qanun analogiyasından istifadə oluna bilməz". Bununla yanaşı, həmin Qanun layihəsinin 16-cı maddəsində qanun analogiyasının və ya hüquq analogiyasının tətbiqinə dair aşağıdakı qayda nəzərdə tutulub:

- qanunvericilikdə boşluqları aşkar edən və qanun analogiyasını və ya hüquq analogiyasını tətbiq edən subyekt ictimai münasibətlərin tənzimlənməsinin səlahiyyətlərinə aid edilmiş normayaratma orqanına bu haqda məlumat verməlidir;
- hüquq analogiyasından və ya qanun analogiyasından istifadə olunması haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müvafiq qərarından sonra qüvvəyə minmiş hesab olunur;
- hüquq analogiyasından və ya qanun analogiyasından istifadə olunması haqqında qərar qeydiyyat üçün Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə təqdim edilməlidir.

Hər bir halda qanunçuluq şəraitində qanunda boşluqların olması, prinsipcə, arzuolunmazdır. Qanunda boşluqların mümkün qədər az olmasına çalışmaq lazımdır, çünki boşluqlar nə qədər azdırsa, qanunvericilik bazası bir o qədər mükəmməl və səmərəlidir.

Müasir şəraitdə, qanunvericiliyin sürətlə dəyişməsi və yeni ictimai münasibətlərin meydana çıxması fonunda bütün bunlar xüsusilə aktualdır. Boşluq anlayışının özünə gəlincə, burada iki aspekt dəqiq sezilir:

1) ümumsosial mənada boşluqlar – bu halda müəyyən ictimai münasibətlər bir sıra səbəblərdən hüquqi tənzimlənmə çərçivəsindən kənarda qalır;

2) sözün hüquqi mənasında boşluqlar – yəni, yalnız hüquqla tənzimlənən sahədə və yalnız hüquqi tənzimlənmə sahəsinə aid faktlarla bağlı yaranan boşluqlar [4, 53].

Diqqət yetirək ki, hər iki halda boşluqların mahiyyətinin izah olunması üçün "hüquqi tənzimlənmə sahəsi" anlayışı xüsusi əhəmiyyət kəsb edir. Bu anlayışın mahiyyəti hüququn izahının bu və ya digər növündən asılı olaraq müəyyən edilir.

Bununla əlaqədar olaraq, ilk növbədə, qeyd edək ki, hüquqi tənzimlənmə sahəsi dinamik kateqoriyadır. O, hər zaman dəyişir – gah ilk dəfə hüquqi tənzimlənmə obyekti olan ictimai münasibətlər hesabına genişlənir, gah da əvvəllər hüquqi tənzimlənmə obyekti olmuş ictimai münasibətlərin hüquqi tənzimlənməsindən imtina sayəsində daralır.

Beləliklə, heç də bütün ictimai münasibətlər hüququn təsir dairəsinə düşmür. Hüquqi normalarla müqayisədə ictimai münasibətlərin daha geniş dairəsini tənzimləyən başqa sosial normalarla nizamlanan münasibətlər də var. Hüquq insanların istisnasız olaraq bütün əməl və qarşılıqlı münasibətlərini hüquqi tənzimlənmə ilə əhatə edə bilməz və qarşısına belə bir məqsəd də qoymur. Cəmiyyət özü insan davranışının xüsusi xarici tənzimləyicilərini işləyib hazırlayır (məsələn, dostluq, sevgi, yoldaşlıq münasibətlərində zina, xəyanət və s.-yə etik qadağalar qoyulması). Belə münasibətlərdə insanları hüquqi tənzimlənmə ilə əlaqələndirmək insanın şəxsi, intim işinə, onun ayrılmaz "mən"inə qarışmaq deməkdir. Bu münasibətlərdə hüquqi tənzimlənmə predmeti yoxdur. Hisslər və fikirlər hüquqi tənzimlənməyə məruz qala bilməz. Onlarla bağlı hansısa hüquq və öhdəliklər müəyyən etmək mümkün deyil.

Çünki insanı müəyyən şəkildə düşünməyə və hiss etməyə məcbur etmək olmaz. Bu sahədə dövlət yalnız müstəsna olaraq mühafizə funksiyası həyata keçirərək, insanın xarici azadlığını kənardan hər-hansı qəsdlərdən qoruya bilər. Amma insanın düşüncələri və hissləri ilə bağlı yalnız onun davranışı və törətdiyi əməllərə görə mühakimə yürütmək olar. Belə ki, insan qanun üçün yalnız əməllərinə görə mövcuddur.

Lakin hüquqla və mənəviyyatla tənzimlənən sahələr arasında sərhədlər dəyişməz qalır. Hüquq normaları daim mənəviyyat normalarının təsirini görür və əksinə. Məsələn, mənəviyyat normalarının təsiri altında qanunverici Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 45-ci maddəsində müəyyən hallarda atalığın müəyyən edilməsi mümkünlüyünü nəzərdə tutub. Əvvəllər bu kimi münasibətlər müstəsna olaraq mənəviyyat normalarının təsir dairəsinə aid idi.

Çox sayda ortaq sahələr var ki, onlar eyni zamanda həm mənəviyyat normaları, həm də hüquq normaları ilə tənzimlənir. Məsələn, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 82-ci maddəsi yetkinlik yaşına çatmış əmək qabiliyyətli uşaqların üzərinə əmək qabiliyyətli olmayan valideynlərə baxmaq öhdəliyi qoyur. Azərbaycan Respublikası Mülki Məcəlləsində şərəf və ləyaqətin, digər şəxsi qeyri-əmlak hüquqlarının və s. qorunmasını nəzərdə tutan maddələr var.

Hüquqi sahəni bütün digər sosial tənzimləyicilərin təsir zonasından düzgün ayırmaq üçün hüquqi tənzimləmə anlayışına üz tutmaq lazımdır. Hüquqi tənzimləmə dövlətin müstəsna hüququdur, o, ictimai münasibətləri hüquq normaları ilə tənzimləməklə insanların müəyyən davranış qaydalarını göstərir ki, onlara riayət etməməyə görə müəyyən sanksiyalar nəzərdə tutulur.

Bu zaman hüquqi tənzimləmə və hüquqi təsir anlayışlarına çox vaxt eyni anlayış kimi baxılır. Hüquqi tənzimləmə hüquqi təsirlə, yəni ictimai münasibətlərə müəyyən normativ təsir üsulu ilə izah olunur. Prinsipcə, bu, lüğəti izaha uyğundur: termin tənzimləmə, qaydaya salma; nəyinsə sistemə salınması deməkdir.

Məna oxşarlığının belə böyük olduğuna baxmayaraq, göstərilən iki anlayış mahiyyətcə eyni olmayan anlayışlar kimi təqdim edilir. Belə ki, hüquqi tənzimləmə termini ictimai münasibətlərin dövlət tərəfindən normativ hüquqi tənzimləmə qeydi ilə verilir, təsir termini ilə isə müəyyən əməllər sistemi vasitəsilə nəyə isə təsir etmək anlayışı ifadə olunur və belə təsirin subyektinin dövlət olması mütləq deyil.

Hüquqi təsir anlayışının həcmi müxtəlif ola bilər. Sözün geniş mənasında hüquqi təsir dövlətin ictimai münasibətləri tənzimləmək üçün istifadə etdiyi yalnız normativ hüquqi deyil, digər forma və vasitələri də əhatə edir [5, 39]. Xüsusən, hüquq düşüncəsi, hüquq mədəniyyəti, hüquq prinsipləri və s. ilə hüquqi təsir mümkündür. Məhkəmənin bu və ya digər mübahisəni mülki mühakimə qaydasında həll etdiyi zaman hüququn analogiyasını tətbiq etməsi ictimai münasibətlərə hüquqi təsirə misal ola bilər. Sözün bir qədər məhdud mənasında hüquqi təsir ictimai münasibətlərə hüquq normaları vasitəsilə təsirdən ibarətdir.

Beləliklə, hüquqi tənzimləmə ictimai münasibətlərə hüquqi təsir vasitələrindən biridir. Bunu nəzərə almaqla, hüquqi tənzimləmənin yalnız normativ hüquqi təsir olduğunu, bütün normativ və fərdi vasitələrin birlikdə işləməsinə isə hüquqi təsir kimi baxılmalı olduğunu hesab edən müəlliflərlə razılaşmaq lazımdır.

Hüquqi tənzimləmə sahəsi anlayışı hüquqi tənzimləmə predmeti anlayışı ilə sıx əlaqəlidir. Hüquq nəzəriyyəsində hüquq normasının bilavasitə insanların davranışı və ya onlar arasında ictimai münasibətləri tənzimləməsi ilə bağlı olması barədə mübahisə mövcuddur. Bu aspektdə qeyd etmək lazımdır ki, ictimai münasibətlər öz-

özlüyündə mövcud ola bilməz, onlar insanların bu münasibətlərin mahiyyətini təşkil edən müəyyən iradi hərəkətlərindən ibarətdir. Deməli, hüquq insanların davranışını tənzimləməklə, onların bu əməllərindən ibarət olan münasibətlərini də nizamlayır.

Fikrimizcə, bu və ya digər ictimai münasibətlərin hüquqi tənzimlənməyə nə dərəcədə məruz qala bilməsi məsələsinin həllində uyğunluq prinsipini, ayrıca şəxsiyyətin və bütün cəmiyyətin maraqları arasında səmərəli tarazlıq əldə olunmasını əsas tutmaq lazımdır. Məsələn, insanın təfəkkür fəaliyyəti və psixologiyası ilə bağlı olan heç nə hüquqi təsir dairəsinə aid olmur. Yol verilən xarici davranış hədləri isə hüquqi normalarla və digər şəxslərin muxtariyyət həddinin pozulmayacağı şəkildə müəyyən edilir. Bundan başqa, bəzi hallarda (fövqəladə vəziyyət, terror təhlükəsi və s.) cəmiyyətin maraqları şəxsiyyətin maraqları üzərində açıq-aşkar üstünlük təşkil edə bilər və belə hallarda da hüquqi münasibət subyektlərinin şəxsi həyatına hüquqi müdaxilə həyata keçirilir.

Beləliklə, ictimai münasibətlərin üç məlum qrupundan – sxematik olaraq onları insan-insan, insan-cəmiyyət (insanlar qrupu), cəmiyyət (insanlar qrupu) – cəmiyyət (insanlar qrupu) kimi təqdim etmək olar. Tərəflərin maraqları arasında tarazlıq prinsipi əsasında hüquqi tənzimləmə aşağıdakı münasibətləri əhatə edir:

1) maddi rifahla bağlı münasibətlər, yəni əsasında maddi maraq duran münasibətlər (məsələn, əmlak münasibətləri);

2) hüquqla mühafizə olunan dəyərlərə müdaxiləyə yol verilməməsi məqsədilə mütləq xarici nəzarət tələb edən münasibətlər (məsələn, insanların hansısa özbaşınalıq hallarından mühafizəsi və müdafiəsi ilə bağlı ictimai münasibətlər; bu, oğurluğu, qətli, soyğunçuluğu, qanunsuz zənginləşməni və s. qadağan edən normalardır);

3) səciyyəvi, təkrarlanan, ictimai həyatın əsas sahələri üçün xüsusi əhəmiyyəti olan, ələlxüsus, hüquqla müdafiə olunan cəmiyyət və şəxsiyyətin maraqları arasında tarazlığın pozula bilməsi ehtimalının daha çox olduğu, obyektiv olaraq hüquqi tənzimlənməsi tələb olunan münasibətlər (məsələn, malların və xidmətlərin sərbəst yerdəyişməsi dövlətin iqtisadi təhlükəsizliyini şübhə altına qoymamalıdır).

Beləliklə, qanunvericilik tənzimləmə dairəsi ictimai həyatın dövlətin təsirini tələb edən daha əhəmiyyətli münasibətləri (maddi, iqtisadi, istehsalat münasibətləri, sosial-iqtisadi quruluş, ictimai asayişin təmin edilməsi ilə bağlı hakimiyyət-idarəetmə münasibətləri, əmlak münasibətləri, şəxsi qeyri-əmlak, əmək münasibətləri və s.) əhatə edir. Bu zaman adı çəkilən münasibətlərin tənzimləməsi hüquqi tənzimləmənin imperativ, dispozitiv, həvəsləndirici və tövsiyə metodları çərçivəsində müxtəlif hüquqi təsir vasitələrinin köməyi ilə həyata keçirilir. Bununla belə, prinsipcə, hüquqi təsir altına düşən müəyyən ictimai münasibətlər müəyyən vaxt ərzində sosial proseslərin, təzahürlərin xüsusi dinamikliyi ilə əlaqədar hüquqi tənzimlənmədən kənarda qala bilər. Məhz bu, boşluqların yaranmasına gətirib çıxarır.

Məsələn, ümumdünya İnternet şəbəkəsinin meydana çıxması çox sayda hüquqi problemlərə səbəb oldu, qanunvericilikdə çoxsaylı boşluqlar aşkar edildi. Xüsusən, İnternet şəbəkəsində elektron kütləvi informasiya vasitəsi – elektron qəzet yaratmağın mümkünlüyü buna aiddir. Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli “Kütləvi informasiya vasitələri haqqında” Qanununda elektron qəzetlər barədə heç nə deyilmir. Ancaq həmin Qanunun 3-cü maddəsində kütləvi informasiya vasitələri kimi dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, İnternet, kinoxronika proqramları və digər yayım formaları göstərilir. Bununla yanaşı, qeyd olunan Qanunun 28-ci maddəsinə görə, “istinad məlumatının göstərilmədiyi kütləvi infor-

masiya vasitələri məhsullarının çapı və yayılması, habelə istinad məlumatlarının qəsdən yanlış göstərilməsi qadağan edilir".

Deməli, belə bir nəticə çıxarmaq olar ki, elektron qəzet, bu qanuna görə, çap KIV-i kimi qeydiyyatdan keçib-keçməməsinə baxmayaraq, kütləvi informasiya vasitəsidir. Müvafiq olaraq, bu qanunda adi informasiya agentlikləri üçün müəyyən edilmiş tələblər analogiya üzrə elektron informasiya agentliklərinə də şamil edilə bilər.

Yekun çıxararaq qeyd edək ki, elə hallar var ki, hüquqi tənzimləmə sahəsi və qüvvədə olan normativ hüquqi aktların çərçivələri üst-üstə düşmür. Başqa sözlə, həmişə ictimai münasibətlərin elə bir hissəsi var ki, onlar hüquqi tənzimləmə sahəsində olsa da, hüquq normaları ilə tənzimlənmir və ya əksinə, normalarda nəzərdə tutulsa da, hüquq sahəsinin hüdudlarından kənara çıxır.

Hüquqi tənzimləmə sahəsinə düşən ictimai münasibətlərin tamamilə və ya qismən tənzimlənməməsinə, ənənəvi olaraq, hüquqda boşluq kimi baxılır. Boşluqdan yalnız aşağıdakı halda söhbət gedə bilər: hüquqda elə bir göstəriş yoxdur ki, ondan müəyyən ictimai münasibətin, prinsipcə, hüquqi cəhətdən tənzimlənməli olduğu, amma bu halda hansısa səbəblərdən tənzimlənmədiyi açıq-aydın görünsün.

Müvafiq olaraq, hüquqda boşluğa aşağıdakıları aid etmək olar:

1) hüquqi tənzimləmə sahəsinə aid olan konkret hadisənin tənzimlənməsi üçün konkret hüquqi normanın olmaması;

2) müəyyən hüquqi normalar toplusunun olmaması;

3) ayrıca hüquqi normanın, onun hansısa hissəsinin olmaması;

4) dövlətin konkret ictimai münasibətin tənzimlənməsində maraqlı olmasına və bu münasibətlərin tənzimlənməsinin məqsədəuyğun olduğuna əsaslanaraq, onların hüquqi tənzimlənməsi zərurəti;

5) hüquqi normanın yaradılması zamanı məlum olan, amma həmin vaxt artıq tənzimlənməsinə ehtiyac olmayan konkret hal.

Deyilənlər nəzərə alınmaqla, hüquqda boşluğa hüququn yaranmasında obyektiv və ya subyektiv sosial amillərlə şərtlənən, ictimai münasibətlərin tamamilə və ya qismən tənzimlənməməsini göstərən, hüquqi tənzimlənmənin mükəmməl olmamasında özünü büruzə verən təzahür kimi tərif vermək olar.

Qeyd etmək lazımdır ki, boşluq o halda yoxdur ki, konkret məsələnin həllinin milli hüququn öhdəsinə buraxılması haqqında açıq-aşkar və ya nəzərdə tutulan razılaşma olsun.

Boşluqların belə fərqləndirilməsinin təcrübi əhəmiyyəti var və şübhəsiz, dövlətlərin normayaradıcı fəaliyyətində nəzərə alınmalıdır.

Boşluqlar yalnız maddi deyil, həm də prosessual hüquqa xasdır. Qanunla tənzimlənmiş prosessual hüququn da mütləq boşluqları olur, lakin bu boşluqlara cəmiyyətin maddi həyat şəraitinin bu və ya digər dəyişiklikləri hüquqi münaqişələrin həlli texnologiyalarında dəyişikliklər qədər səbəb olmur. Şübhəsiz, prosessual qanunvericilik inkişaf etdikcə, onun boşluqları aradan qaldırılmalıdır.

Beləliklə, hüquqi tənzimləmədə boşluq hüquqi tənzimləməni tələb edən ictimai münasibətlərin nizamlanmaması, habelə qüvvədə olan normativ hüquqi aktlarda qanunverici tərəfindən müəyyən edilmiş hüquqi tənzimləmə sahəsi çərçivəsində konkret halın həlli üçün zəruri normaların olmamasıdır, bunlara tələbat qüvvədə olan qanunvericiliyin mənası ilə müəyyən olunur.

Hüquqi tənzimləmədə boşluqların obyektiv səbəblərinə hüquqi tənzimlənməsi tələb olunan, amma mövcud qanunvericilikdə onların həlli üçün müvafiq hüquqi

normalar nəzərdə tutulmayan ictimai münasibətlərin inkişafı və yeni münasibətlərin yaranması ilə əlaqədar qanunvericiliyin təbii olaraq "köhnəlməsi" aiddir.

Subyektiv səbəblərə bilavasitə qanunvericinin səhvləri aiddir ki, bu, aşağıdakı hallarda mümkündür:

1) gerçəkliyin yanlış normativ əks olunması nəticəsində, bu zaman normativ hüquqi akt tənzimlənməsi tələb olunan hansısa ictimai münasibətləri və ya münasibətlər qrupunu əhatə etmir;

2) qanun yaradıcılığı prosesində yol verilmiş hüquqi-texniki səhvlər.

Qanunvericinin qanunvericilik texnikası qaydalarına riayət etməməsi boşluqların yaranmasında heç də az rol oynamır. Məsələn, yeni aktın hazırlanmasına və ya köhnəlmiş qanunvericiliyin ləğvinə baxmayaraq, formal olaraq ləğv edilməmiş, amma artıq əhəmiyyətini itirmiş normalar ola bilər. Belə hallarda qanunvericilikdə ziddiyyətli və bir-biri ilə uyğunlaşdırılmamış müddəalarla yanaşı, kifayət qədər aydın olmayan ifadələr, habelə hüquqda boşluqlar ola bilər.

Boşluqlar anlayışının təhlilinə növbəti araşdırmalar məqsədilə zəruri olan bəzi terminoloji dəqiqliklər əlavə edilməlidir. Boşluqlar fenomeni başlanğıcda yalnız bir şəkildə – hüquqda boşluqlar kimi ifadə olunurdu və yalnız sonradan, hüquqi təfəkkürün inkişafı ilə ikinci termin – qanunvericilikdə boşluqlar meydana çıxdı. Müasir ədəbiyyatda hər iki variantdan – həm bir-birini əvəz edən, həm də bir-birindən fərqlənən variantlar kimi istifadə olunur.

Terminlərdən istifadə olunmasında belə nizamsızlıq, fikrimizcə, hüquq və qanun anlayışlarının son illər aktuallaşan qarşılıqlı əlaqəsi ilə şərtlənib. Hüquq elmlərinin tarixindən məlumdur ki, hüquq ilkin olaraq ədalət, bərabərlik və s. kimi kateqoriyalar ilə eyniləşdirilirdi. Amma dövlətin nüfuzuna və gücünə istinadsız hüquq heç nəyi nizamlaya bilməzdi, konkret həyat hadisələrində müxtəlif şəkillərdə tətbiq olunan mücərrəd ideya kimi qalardı.

Sovet hakimiyyəti dövründə "unudulmuş" təbii hüquq ideyaları 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasında dövlət quruluşu əsaslarının tənzimlənməsinin ən mühüm elementi kimi təsbit edilmişdir. Belə yanaşmada hüquq dedikdə, onun qanunla fərqləndirilməsi və əlaqələndirilməsi zamanı insanın təbii, ayrılmaz hüquqları nəzərdə tutulur. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VI hissəsinə əsasən, «Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir». Onlar qanunların mənasını, mahiyyətini və tətbiqini, qanunvericilik və icra orqanlarının fəaliyyətini müəyyən edir və ədalətli mühakimə ilə təmin edilir.

Bu müddəa, xüsusilə, cəmiyyətimizin keçmişində mövcud olan ənənələri pozur, bu zaman konstitusiya normaları yalnız qanun, qanunqüvvəli normativ hüquqi akt olduğu halda reallaşa bilərdi. Hüquq və azadlıqlar, zərurət olarsa, onları konkretləşdirməli, onların daha səmərəli həyata keçirilməsi üçün qaydalar, mexanizmlər və prosedurlar müəyyən etməli olan müvafiq qanunvericilik aktlarının mövcud olub-olmamasından asılı olmayaraq, birbaşa qüvvədədir.

Normayaradıcı orqanlar tərəfindən açılmamış, amma hüququn tətbiqi prosesində hüquq tətbiqi fəaliyyətinin subyektləri tərəfindən konkretləşdirilən qiymətləndirmə anlayışlarını hüquqda boşluqlardan fərqləndirmək vacibdir. Məsələn, Azərbaycan Respublikası qanunvericiliyində "işçilərin maraqları", "digər hadisələr", "qarşıda duran işin xarakteri və onun yerinə yetirilməsi şərtləri", "başqa hallar", "kobud şəkildə pozulma", "gözlənilməyən hallar", "müstəsna hallar" və s. kimi qiymət-

ləndirmə anlayışlarından istifadə olunur. Hesab edirik ki, qiymətləndirmə anlayışları olan normaların tətbiqi hüquqda boşluqların aradan qaldırılmasından və qüvvədə olan hüquq normalarının şərhindən fərqlənən özünəməxsus üsuldur. Qiymətləndirmə anlayışının mahiyyəti ondan ibarətdir ki, normayaradıcı orqanlar hüquq normalarını tətbiq edən orqana qəsdən işin konkret halları nəzərə alınmaqla vəziyyətin sərbəst qiymətləndirilməsi imkanı verir. Burada ictimai münasibətlərin hüquqi tənzimlənməsində "itki" qalmır: konkret məsələnin həllini hüquq tətbiq edən orqanın öhdəsinə buraxmaqla, normayaradıcı orqan bu şəkildə öz iradəsini ifadə edir.

Normativ hüquqi aktların mətnlərində qiymətləndirmə anlayışlarının olması qaçılmazdır. Lakin bu, hüquqda boşluqların olmasına dəlalət etmir. Belə ki, prinsipcə, heç də həmişə hüquqi vasitə ilə ifadə olunması tələb edilən bu və ya digər halların hüquqi tərifini vermək mümkün deyil. Məsələn, normativ hüquqi aktlarda tez-tez istifadə olunan "üzrlü səbəblər" anlayışını bir mənaya yerləşdirmək mümkün deyil. Əgər Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 128-ci maddəsinə görə, nigaha daxil olmaq işçiyə əmək haqqı ödənilmədən məzuniyyət verilməsi üçün üzrlü səbəbdirsə, bu, çətin ki, əmək intizamı qaydalarının pozulmasının əsaslandırılması zamanı üzrlü hesab olunsun. Buna görə, normayaradıcı orqanlara hər dəfə "üzrlülük" meyarları müəyyən etməyi tövsiyə etmək və ya bütün hallar üçün üzrlü səbəblərin universal leqal tərifini vermək məqsədəuyğun deyil.

Bununla belə, qeyd etmək lazımdır ki, bəzi hallarda qiymətləndirmə anlayışları zəruridirsə, digər hallarda onlar həddindən artıq lazımsızdır. Qiymətləndirmə anlayışlarından istifadə edərkən onların mənfi tərəfini də xatırlamaq lazımdır. Qiymətləndirmə anlayışları hüquq tətbiq edən orqan tərəfindən konkretləşdirildiyi və dəqiqləşdirildiyi üçün işin konkret hallarının qiymətləndirilməsində subyektiv amil qaçılmazdır. Düşünürük ki, bu halda hərtərəfli və ya heç olmasa təxmini siyahının mövcudluğu faktların qiymətləndirilməsinə arzuolunmaz subyektiv yanaşmanın qarşısını ala bilərdi. Şübhəsiz, hüquqi normaları normativ aktın mətnində ümumi şəkildə ifadə etmək (məsələn, mücərrəd tərif şəklində), amil və halların tam siyahısını sadalamaq mümkündürsə, normayaradıcı orqanlar bunu etməyə borcludurlar. Lakin qiymətləndirmə anlayışları olan hüquq normalarından normanı başqa şəkildə şərh etməyin mümkün olmadığı halda istifadə olunmalıdır. Belə ki, bu, istənilən hüquq normaları deyil, yalnız normayaradıcı orqanların obyektiv səbəblərdən – başqa hüquqi quruluşdan istifadə etməyin mümkün olmadığı üçün konkretləşdirmədiyi hüquq normalarıdır. Məhz buna görə, qiymətləndirmə anlayışlarının düzgün tətbiqinə zəmanət kimi bu anlayışın təsir dairəsinə düşən amil və halların tam, hərtərəfli siyahısının müəyyən edilməsini düzgün hesab etmək olmaz. "və s.", "və i.a.", "başqaları", "digərləri", "buna bənzər", "oxşar" ifadələrindən istifadə ilə təxmini siyahının müəyyən edilməsi isə qiymətləndirmə anlayışlarının tətbiqində tam subyektivliyi, "yaradıcı" mülahizə mümkünlüyünü istisna etmir.

Bütün bu deyilənlərdən qiymətləndirmə anlayışı və təcrübədə hüquqda boşluğun fərqləndirilməsi məsələsi ortaya çıxır. Bu məsələnin mahiyyəti ondan ibarətdir ki, birinci halda konkret münasibətlərin özünəməxsus formada hüquqi tənzimlənməsi var, ikinci halda isə hüquqi tənzimləmədə ən qısa zamanda aradan qaldırılması tələb olunan "itki" var. Həm də hər iki halın baş verməsinin əsasında oxşar səbəblər dura bilər. Hesab edirik ki, bu hüquqi təzahürləri yalnız hər bir konkret halda hüquqda boşluq olması və ya olmaması faktını müəyyən etməklə fərqləndirmək olar. Bir qədər tələskənliyə yol verərək qeyd edək ki, hüquq normalarının hüquqi şərhi üsulları

normayaradıcı orqanların iradəsinin müəyyən edilməsinə şərait yaradır və qiymətləndirmə anlayışı olan norma və ya hüquqda boşluq olduğunun dəqiqləşdirilməsinə imkan verir.

Qeyd edilmiş mülahizələr nəzərə alınmaqla, hüquqda qiymətləndirmə anlayışına normayaradıcı orqanların iradəsinin xüsusi ifadə edilməsi üsulu kimi tərif vermək olar. Bu üsul normativ hüquqi aktın mətnində təsbit edilmiş, qanunda boşluq olmayan, amma bu və ya digər işin hüquq tətbiq edilməsi zamanı bu fəaliyyət subyekti tərəfindən konkretləşdirilməsi və dəqiqləşdirilməsi tələb olunan müddəadır.

Nəhayət, boşluqları onlara bənzər kateqoriyalardan – qanunvericinin şüurlu şəkildə susmasından və hüquqi səhvindən fərqləndirmək lazımdır.

Qanunvericinin şüurlu şəkildə susması termini qanunvericinin bilərəkdən hansısa münasibətləri hüquqi tənzimləmə sahəsindən çıxardığı halları ifadə edir. Belə ki, qanunverici ictimai münasibətlərin müəyyən sahəsini müstəsna olaraq ümumi şəkildə tənzimləyən norma müəyyən edə, bununla da bu normanın konkretləşdirilməsini və ya işin öz mülahizəsinə görə həll edilməsini hüquq tətbiq edən orqanın öhdəsinə buraxa bilər.

Lakin hüquq tətbiq edən orqan üçün bəzən qanunvericinin bu münasibəti hüquqi tənzimlənmə sahəsindən qəsdən çıxardığı və ya bu halda qanunun analogiyası və ya hüququn analogiyası vasitəsilə aradan qaldırılmalı olan boşluq olduğunu müəyyən etmək asan olmur. İstənilən halda, yadda saxlamaq lazımdır ki, hüquqda tamamilə hər şeyi nəzərdə tutmaq mümkün deyil. Çünki həyati hadisələr hüquq normalarının ehtimallarına nisbətən daha müxtəlifdir. Digər tərəfdən isə, qanunvericilikdə hər boşluğun aradan qaldırılması ya hüquqi münasibət subyektlərinin səlahiyyətləri həcminin əsassız olaraq genişlənməsinə və ya bu və ya digər subyektiv hüququ olan şəxslərin dairəsinin genişlənməsinə, ya da hüququn məhdudlaşdırılmasına gətirib çıxara bilər.

Hüquqi səhvə gəlincə, qanun yaradıcılığı sahəsində bu, mənfi sosial-hüquqi pozuntu, obyektiv olaraq mövcud olan şərtlərin qanunverici orqan tərəfindən yanlış və ya qeyri-düzgün qiymətləndirilməsi və onların qanunverici səviyyədə normativ hüquqi aktlarda təsbit edilməsi kimi başa düşülür.

Qanunvericilik orqanı tərəfindən qanun yaradıcılığında aşağıdakı hallarda yanlışlıq baş verir:

- yanlış olaraq müvafiq münasibətlərin hüquqi tənzimlənməsinə ehtiyacın olmaması hesab edilir;
- yanlış olaraq hüququn tətbiq edilməsi zamanı konkretləşdirilməsi mümkün hesab edilir;
- məsələnin həlli yanlış olaraq hüquqtətbiqediciyə həvalə edilir;
- mövcudluğuna ehtiyac olmayan norma yaradılır [6, 113]. Başqa sözlə, qanunyaradıcılik orqanı məsələni lazım olduğu şəkildə həll etmir. Hüquq norması mövcuddur, praktiki olaraq, işləyir, amma müəyyən səbəblərdən hüquq tətbiq edən orqanları qane etmir.

İlk üç müddəada qanunun tətbiqi zamanı müəyyən edilən boşluqlar nəzərdə tutulur. Bu zaman həmin boşluqları yalnız qanunyaradıcı orqan doldura bilər.

Beləliklə, dövlət tərəfindən nəzarət tələb edən ən mühüm sosial qarşılıqlı əlaqələrdən ibarət olan insan – insan, insan – cəmiyyət (insanlar qrupu), cəmiyyət (insanlar qrupu) – cəmiyyət (insanlar qrupu) kimi münasibətlərin hüquqi tənzimlənməsi sahəsinin nəzərə alınması ilə boşluqların hüquqi təbiəti tam müəyyən olunur. Belə tənzimləmənin hüdudlarını müəyyən edərkən mütənasiblik prinsipini, ayrıca şəxsiy-

yətin və bütünlükdə cəmiyyətin maraqları arasında səmərəli tarazlıq əldə edilməsini əsas kimi götürmək lazımdır.

Hüquqi tənzimləmədə boşluq ictimai münasibətlərə hüquqi təsir sistemində obyektiv olaraq zəruri hesab olunan elementin tamamilə və ya qismən olmaması nəticəsində meydana çıxan hüquqi qeyri-müəyyənlikdir. "Hüquq" və "qanun" anlayışlarını ardıcıl olaraq fərqləndirərkən etiraf etmək lazımdır ki, hüquqi tənzimləmədə boşluq, öncə, qanunvericilikdə boşluq kimi özünü büruzə verir.

## ƏDƏBİYYAT

1.Жуйков В.М. Судебная защита прав граждан и юридических лиц. М.: Городец, 1997, 320с.
2.Вопленко Н.Н. Реализация права. Волгоград: ВолГУ, 2001, 48с.
3.Недбайло П.Е. Применение советских правовых норм. М.: Госюриздат, 1960, 511с.
4.Алексеев С.С. Общая теория социалистического права. Применение права. Наука права. Курс лекций: Учебное пособие. Вып. 4. Свердловск: Сред.-Урал. кн. изд-во, 1966, 203с.
5.Лазарев В.В. Сфера и пределы правового регулирования // Советское государство и право. 1970, № 11, с. 38-44.
6.Лазарев В.В. Применение советского права. Казань: Казанский Университет, 1972, 200с.

## ПРАВОВАЯ ПРИРОДА ПРОБЕЛОВ В ЗАКОНОДАТЕЛЬСТВЕ

Р.К.ДЖЕБРАИЛОВ

## РЕЗЮМЕ

В статье отмечается, что наличие пробелов в законодательстве представляет собой естественное явление, которое свойственно любой правовой системе. Эти пробелы образуются вследствие отсутствия регламентации ряда общественных отношений, объективно в ней нуждающихся, в результате «устаревания» законодательства, не успевающего за стремительным развитием общественных отношений, либо по причине несовершенства законодательной техники.

Отмечается, что пробела нет там, где имеется явное намерение не включать конкретный вопрос в нормативный правовой акт или передать его решение соответствующему государственному органу.

## LEGAL NATURE OF LACUNAS IN LEGISLATION

R.K.JABRAYILOV

## SUMMARY

It is noted in the article that, lacunas in legislation are natural phenomena inherent in any legal system. These lacunas derive from non-resolution of social relations which are subject to regulation, as well as from "aging"of legislation in connection with the rapid development of social relations or from imperfection of legislative techniques.

Lacunas do not exist where there is an obvious intention not to include concrete issue into normative legal act or render into the relevant state body.